**Aygün FƏRƏCOVA**
**Gəncə Dövlət Universiteti**
**aygunfaracova@gmail.com**

# ƏLİ NƏZMİ VƏ MÜASİRLƏRİ

Azərbaycan ictimai-ədəbi və mədəni-mənəvi həyatında XIX əsrin ortalarından yeni düşüncə və təsvir, ifadə tərzi özünü göstərirdi; mədhiyyəçilik, sosial məzmundan məhrum olan ədəbiyyat getdikcə öz yerini süjetli realist, maarifçi ruhlu, əxlaqi-didaktik və satirik ruhlu əsərlərə verir, oxucular tərəqqiyə, inkişafa, digər xalqların nümayəndələri ilə ayaqlaşmağa çağırılırdı. XIX əsrin 50-ci illərindən M.F.Axundzadənin realist qələm məhsullarının – komediya, bədii nəsr, ədəbi tənqid, publisistika janrları ondan sonra ədəbi fəaliyyətə başlayan N.Vəzirov, Ə.Haqverdiyev, S.M.Qənizadə, S.S.Axundov, İ.Qutqaşınlı, N.Nərimanov, C.Məmmədquluzadə, Ü.Hacıbəyov, Ə.Ağaoğlu, Ə.Hüseynzadə, M.M.Axundov, A.Divanbəyoğlu, M.S.Ordubadi, Y.V.Çəmənzəminli və başqaları tərəfindən davam və inkişaf etdirilirdi; ədəbiyyatda bədii nəsr, dram və poeziyada yeni forma, üslub və janrlı bədii nümunələr – hekayə, povest, vodevil, faciə, satirik dialoq və monoloqlar, taziyanələr və s. meydana çıxırdı.

XIX və XX əsrlərin qovuşuğuna doğru ictimai-mədəni və sosial-siyasi həyatın fəallaşması ilə yanaşı yenilik ruhlu düşüncə sahiblərinin "...xidmətləri sayəsində ictimai-ədəbi düşüncədə özünə geniş vətəndaşlıq hüququ qazanan sosial-mədəni varlığa realist, tənqidi və maarifçi münasibətə inqilabi, mübariz əhvallı bir məzmun da hopmaqda idi. Bu işdə xalqların milli özünüdərki, milli mənlik şüurunun formalaşma prosesi ilə yanaşı, XIX əsrin sonlarına doğru siyasi dərnək və partiyaların yaranması da əhəmiyyətli rol oynayırdı. Təbii ki, bütün bu ideya-siyasi işlərdə bədii və publisistik sözün təsir gücündən istifadə

edilir, nəticədə ədəbiyyat həm də dövrün sosial-ictimai mübarizə ruhlu ideyaları ilə zənginləşirdi. Yeni mövzular və ideyalar ədəbiyyatın janr əlvanlığına da təsir göstərirdi.

Zamanın nəbzinə, oxucu və yaradıcı qüvvələrin zövqlərinə uyğun olaraq XX əsr Azərbaycan ictimai-ədəbi mənzərəsində aparıcı istiqamətlərdən biri də mollanəsrəddinçilər ədəbi hərəkatı idi. Bu ədəbi cərəyanın əsas təmsilçiləri sırasında Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Ömər Faiq Nemanzadə, Məmməd Səid Ordubadi, Mirzə Ələkbər Sabir, Əli Nəzmi, Əli Razi Şamçızadə, Əliqulu Qəmküsar və başqaları daxildir. Mollanəsrəddinçi ədəbi qüvvələr əsasən "Molla Nəsrəddin" jurnalının ətrafına toplaşmış və həmin jurnalın səviyyələrində çıxış edirdilər.

Mollanəsrəddinçilər dövrün sosial-mədəni çatışmazlıqlarını, mənəvi-əxlaqi eybəcərliklərini sadə, anlaşıqlı, açıq-aydın ana dilində ancaq kəskin və mübariz ruhda tənqid edirdilər. Bununla onlar cəmiyyətdəki eybəcərliklərin aradan qaldırılmasına, xalqın və vətənin, vətən övladının gələcək işıqlı, xoşbəxt həyatının təmin edilməsinə çalışırdılar.

Əli Nəzminin "Molla Nəsrəddin" jurnalında iştirakı və mollanəsrəddinçilər ədəbi cərəyanına qoşulması təsadüfi olmayıb, təbii şəkildə baş vermişdir. Belə ki, professor Firidun Hüseynovun yazdığı kimi: "1903-cü ildə Tiflisdə "Şərqi-rus" qəzetinin nəşrə başlaması Azərbaycanın başqa maarifpərvər ziyalıları kimi, Əli Nəzmini də ürəkdən sevindirir. Bu münasibətlə "Kənddə ibtida" (1904) adlı şeirini yazıb "Şərqi-rus"da çap etdirir  ki, bu onun ilk mətbu əsərlərindəndir. Bundan sonra Əli Nəzmi "Şərqi-rus" qəzetinin fəal müxbiri olur. 1904-cü ildən sonra C.Məmmədquluzadə, M.Sahtaxtinski (M.Şahtaxtlı – **A.F.**), Ö.F.Nemanzadə, Abdulla Tofiq (Sur) və başqa qabaqcıl ziyalılarla şəxsən tanış olan Əli Nəzmi xalqın mədəniyyət və ədəbiyyatının inkişafı yolunda onlarla birlikdə çiyin-çiyinə addımlamağa başlayır".

Əli Nəzmi özü sonralar "Keçmiş günlər" adlı xatirələrində bu ziyalı adamlarla tanış olması haqda yazmışdır:

O zaman Tiflisə mən çox gedərdim,
Şahtaxtlı ilə tanışdıq... Bir gün...
Dedi: "Dostum, getmə, bir azca dayan",
Cəlil və Faiqlə eylədi tanış...

Cəlil Məmmədquluzadə və Ömər Faiqlə Məhəmməd ağa Şahtaxtlının təşəbbüsü və vasitəsilə tanışlığından oyanan təəssüratı Əli Nəzmi belə qiymətləndirirdi:

O gün böyük sima ilə mən
Dost oldum, gözlərim oldu çox rövşən.

Əli Nəzmi digər yazıçı və şair dostları – M.M.Axundov və Abdulla Tofiq Surla da "Şərqi-rus" və "Molla Nəsrəddin"lə əməkdaşlıqları sayəsində tanış olmuş və onlarla özünün arasında əmələ gələn yaradıcılıq əməkdaşlığını yüksək qiymətləndirmişdir. Bu barədə yenə "Keçmiş günlər"də oxuyuruq:

Gəncədə işləyən dost, aşnam çoxdu,
Mollanı sevməyən bir arif yoxdu.
"Hatif" Mirzə Məhəmməd Axundzadə,
Yaxşı bir şairdi – fikri azadə.

"Xatirələr"dən də məlum olur ki, Əli Nəzmi Gəncədəki həmkarlarından az faydalanmamışdır. Onun Abdulla Surla yaradıcılıq söhbətləri Mirzə Məhəmmədlə olan əməkdaşlıq münasibətlərindən bir qədər fərqli olmuşdur:

Abdulla Tofiqlə dəxi yaxındıq,
Görüşüb söhbətlər edərdik sıx-sıx.

Hansı bir yazımdan xoşlanırdısa,
Deyərdi: "– Yaz, ancaq dadlı, həm qısa".

Göründüyü və irəlidə təhlil edəcəyimiz faktların da təsdiqlədiyi kimi, Əli Nəzmi dostluqda etibarlı, sabitqədəm və qədirşünas olmuşdur. Adları çəkilən və qeyd edilməyən yaradıcı dostları, həmkarları ilə daha sıx əməkdaşlıq etmiş, onların uğurlarına sevindiyi kimi, dar günlərində dərdlərinə şərik çıxmış, istəklərinə isə dərin təəssüf və kədərini, dost yanğısını bildirmişdir.

Dövrün yuxarıda göstərilən açıqfikirli, mübariz ruhlu, vətənpərvər, yaradıcı ziyalılarının Tiflisdə, Gəncədə münbit əhatəsinə düşməsi Əli Nəzminin dünyagörüşünün və yaradıcılıq qabiliyyətinin dövrün tələbinə uyğun və düzgün istiqamətdə formalaşmasında əlverişli rol oynamışdır. Getdikcə o, daha böyük həvəs və coşqunluqla yazıb-yaratmış, elmin təsdiqlədiyi kimi, zəmanəsinin və mənsub olduğu ədəbi cərəyanın kifayət qədər nüfuza malik nümayəndələrindən biri olmuşdur. O, ədəbi yaradıcılıqda və ictimai-mədəni fəaliyyətdə daim axtarışda olmuş, çalışqanlığı, istedadı və vətəndaşlıq mövqeyi seçilmiş, yaradıcılıq uğurları açıqfikirli müasirləri tərəfindən yüksək qiymətləndirilmişdir. Məsələn, mollanəsrəddinçilər ədəbi yaradıcılıq hərəkatının başçısı və istiqamətvericisi Cəlil Məmmədquluzadə 1927-ci ildə Əli Nəzminin əsərlərinin "Azərnəşr" tərəfindən "Sijimqulunamə" adı ilə kitab şəklində nəşrinə yazdığı "Məşədi Sijimqulu", "Kefsiz" başlıqlı ön sözdə həmkarının, şair dostunun (Əli Nəzminin) "Molla Nəsrəddin" jurnalı cəbhəsinə gəlişi, buradakı yaradıcılıq axtarışları və uğurları haqda çox böyük şövq və ilhamla danışmışdır. O, "Molla Nəsrəddin" jurnalının 1906-cı ildə çıxarılan 7 aprel tarixli 1-ci nömrəsində çap etmək üçün orijinal şeir tapa bilmədiklərinin səbəbini jurnalın ruhuna, proqram və məzmununa, üslubuna uyğun yazıb-yaradan şair tanımadıqlarını, ona görə də özlərinin şeir adına bir nəzm düzəldib birinci nömrədə nümunə kimi dərc etməyə məcbur

olduqları barədə yazırdı: "...Bu şeiri ("Ey dil, dəxi dinmə və sükut et, səni tarı" misrası ilə başlanan nümunə – **A.F.**) yazan əsla şair deyil idi. Bu bir nümunə idi ki, bunu birinci nömrədə dərc etməkdə biz həqiqi "Molla Nəsrəddin" şairini axtarırdıq. Biz Sabiri və Məşədi Sijimqulunu axtarırdıq".

Cəlil Məmmədquluzadə inqilabi satira poeziya məktəbinin banisi və bayraqdarı Mirzə Ələkbər Sabirin tezliklə "Molla Nəsrəddin" jurnalının səsinə səs verməsini və fəal, yaradıcılıq qızğınlığı ilə yazıb-yaradaraq bir müddət hər kəsi heyrətdə buraxmasını belə xatırlayırdı: "...Sabir mərdi-mərdanə özünü tulladı "Molla Nəsrəddin" meydanına və elə bir nərilti və gurultu ilə dalbadal yazmaqda davam etdi ki, hətta bəlkə özünə bərabər olan Məşədi Sijimqulunu (Əli Nəzminin satirik gizli imzalarından biridir – **A.F.**) da xeyli bir vaxt sükutda saxladı və belə yadıma gəlir ki, Sabirin "Molla"da zühurundan ta il yarıma qədər Məşədi Sijimqulunun mənzum əsərləri idarəmizə gəlib çatmadı".

Bu, tamamilə doğrudur, belə ki, sabirşünas alim, mərhum professor Məmməd Məmmədov M.Ə.Sabir satira məktəbinin formalaşması və inkişafı prosesini diqqət və həssaslıqla tədqiq edərək yazmışdır: "Sabir ədəbi məktəbinə mənsub olan şairlər öz ustalarının poetik üslubunu, satirik ifadə tərzini və spesifik yazı manerasını birdən-birə həzm və dərk edə bilmir, tədricən mənimsəyirdilər. Müşahidələr göstərir ki, 1906-cı ilin ortalarından başlanan bu dərketmə və mənimsəmə prosesi təxminən 1907-ci ilin axırlarına qədər davam etmişdir. Bu surətlə Sabir satirasının təsiri altında yazılmış bəzi şeirlərə "Molla Nəsrəddin" jurnalının ilk illərində ara-sıra təsadüf edilsə də, o təsir 1908-ci ildən etibarən daha qabarıq şəkildə özünü göstərməyə başlayır. Diqqətəlayiq haldır ki, Sabir ənənələri ilə bu və ya digər dərəcədə bağlı olan şairlərin çoxu məhz bu vaxtdan satirik şeirə keçmiş, öz mənzum əsərləri ilə "Molla Nəsrəddin" səhifələrində müntəzəm surətdə çıxış etməyə başlamışlar. M.S.Ordubadi və

Əli Nəzminin 1906-1907-ci illərdə jurnalda dərc olunmuş bir-iki satirasını nəzərə almasaq, bu sözlər mollanəsrəddinçi şairlərin, demək olar, hamısına şamil edilə bilər".

Sabir satirasının poetik və ideya-estetik xüsusiyyətlərini tədricən mənimsəyib, səsini onun səsinə qatanlardan biri də Cəlil Məmmədquluzadə tərəfindən "İkinci Sabirimiz" adlandırılan Əli Nəzmi Məmmədzadə olmuşdur.

Bütün bu və digər məziyyətlər Əli Nəzmi istedadının, onun yaradıcılıq imkanlarının gücündən, şairlik istedadının nəhayətsizliyindən xəbər verir. O, Sabirə yazdığı cavab satirasında sanki "Tömeyi-nahar"da satirik ifşaya hədəf olan tiplərin dilindən özlərini təmizə çıxarma cəhdi ilə qarşı tərəfə – Sabirə gileygüzarla belə "irad" tuturdu:

Çayda çapan qardaşım,
Ağlama, ağları gör,
Fikr elə bir az, qadam,
Xəlqi, sora karı gör.

Əli Nəzmi öz ustad həmkarını – "Çayda çapan"ı hər işə ağınabozuna baxmadan qarışmaqda, xalqın, el-obanın problemlərindən uzaq düşdükləri üçün imkanlı zümrələrə irad tutmaqda qınayır.

Beləliklə, satirik tipin əməllərinin tamamilə millətə və xalqa xəyanətdən ibarət olduğunu Əli Nəzmi də obrazlı şəkildə bəyan edir. Bununla o, özünün şair həmkarları ilə tamamilə həmrəy, ona tərəfdar olduğunu bildirir. Müşahidə və araşdırmalar göstərir ki, o, təkcə bu satirasında deyil, bütün yaradıcılığı ərzində ustadı Sabirin ictimai-vətəndaşlıq mövqeyində dayanmış, "Molla Nəsrəddin" ədəbi məktəbinin fəal, yaradıcı təmsilçisi olmaqla yanaşı, özünün şairlik orijinallığını, özgürlüyünü qoruyub saxlaya bilmişdir.

**Aygun Farajova**

## ALI NAZMI AND HIS CONTEMPORARIES

***Summary***

From the middle of the $19^{th}$ century, a new way of thinking and description, expression manifested in the social, literary, cultural and spiritual life of Azerbaijan; Praise, literature deprived of social content, gradually gave way to realistic, moral-didactic and satirical works with a subjective spirit.

In accordance with the pulse of time, the tastes of readers and creative forces, one of the leading trends in the socio-literary view of Azerbaijan in the twentieth century was the literary movement of Mollanasraddinists. The Mollanasraddinists criticized the socio-cultural shortcomings and moral deformities of the time in a simple, clear mother tongue but in a sharp and militant spirit.

Throughout his activities Ali Nazmi stood in the social-civic position of his master Sabir, was an active and creative representative of the literary class of "Molla Nasraddin" and was able to preserve his poetic originality and freedom.